**Firuzə Məmmədli**

**Təzə il Novruzdur**

Gah yağış yağacaq, gah qar səpəcək,
Göyün sinəsində nə var, səpəcək.
Dünyanın başına bahar səpəcək,
Təzə il Novruzdur, Novruza alqış!
Dinəcək yaşıl yarpaq əllərin,
Qargülü, bənövşə - torpaq əlləri.
Düşəcək başından papaq əlləri,
Dağın zirvəsində o buza alqış!
Nə verib alammır qış bu fəsildən?!
Aşır başımızdan iş bu fəsildə.
Bir budağa quş ol, uç bu fəsildən,
Bahara aparan yolumuza alqış!
Tonqallar çıtlayır yollar boyunca,
Şamlar, yelləncəklər – oyun-oyuncaq.
Mahnılar, oyunlar, rəqslər – doyunca,
Yallıya çatılan qolumuza alqış!
Kosa saqqal umur təkədən bu gün,
Doyammır loxmadan, tikədən bu gün.
Qışın bağrı çatlar hikkədən bu gün,
Bu gündən başlayan ilimizə alqış!
Döyür qapıları Axır çərşənbə,
Əfsanə çərşənbə, nağıl çərşənbə,
Dolur papaqlara noğul çərşənbə,
Yeni halımıza, günümüzə alqış!
Lalələr – titrəşən al qumaş daha,
Bir yanardağ olar yal-yamac daha.
Ömrünü qış üstə ağlamaz daha,
Ahurmazdaya – Hörmüzə alqış!
Dilin də, dinin də qədimi – bizdə,
Pirin, peyğəmbərin qədimi – bizdə.
Axtarsan, taparsan Adəmi bizdə,
Halal yurdumuza, yerimizə alqış!
Gah yağış yağacaq, gah qar səpəcək,
Dünyanın başına bahar səpəcək,
Təzə il Novruzdur, Novruza alqış!

**Məmmədli F. Təzə il Novruzdur : şeir // Dərd üzünü gizləyir. – Bakı : Adiloğlu, 2011. - S.7-8.**